# Azərbaycan qlobal tədbirlərin mükəmməl təşkilatçılıq modelini yaradıb











## *Koku Selom AGBAVİTO:* "İnanıram ki, COP29 iqlim dəyişikliyi məsələlərinin həllində gələcək COP-lar üçün model rolu oynayacaq"

"COP29 konfransı təkcə təşkilatçılıq baxımından deyil, həm də qlobal miqyasda iştirakçıların müxtəlifliyi və müzakirələrin konstruktivliyi ilə seçilir. Bu tədbirin yüksək səviyyədə təşkili təqdirəlayiqdir. İştirakçılar arasında rahatlıq və məmnuniyyət hissi hakimdir, bu da konfransın ümumi mühitinə müsbət təsir edir".



Bu sözləri AZƏRTAC-a açıqlamasında COP29-un Toqodan olan iştirakçısı Koku Selom Agbavito bildirib.

"Vətəndaş cəmiyyəti nümayəndələri olaraq bu müzakirələrdə fəal iştirak etməyimiz zəruridir. Düşünürəm ki, COP29 digərlərindən fərqli olaraq, istər qadınların, istərsə də yerli icmaların səsi olmaq üçün əhəmiyyətli platformaya çevrilib. Mən özüm də yerli icmalarla və qadınlarla çalışaraq onların fikirlərini və təkliflərini təqdim etməyə çalışıram. Bu, mənim üçün böyük məsuliyyətdir və Azərbaycan bu istiqamətdə qlobal diqqətə layiq nümunə ortaya qoyur", - deyə o əlavə edib.

Növbəti illər üçün planlara toxunan Koku Selom Agbavito qeyd edib: "COP-un təcrübəsi sübut edir ki, düzgün təşkilatlanma və inklüziv yanaşma ilə daha böyük nailiyyətlərə imza atmaq mümkündür. Mən inanıram ki, COP29 qlobal iqlim dəyişikliyi məsələlərinin həlli yolunda ən uğurlu konfranslardan biri olacaq və gələcək COP-lar üçün model rolunu oynayacaq. Azərbaycan hökumətinə və təşkilatçılara təşəkkür edirəm ki, belə beynəlxalq səviyyəli tədbiri həyata keçirməklə bu uğuru mümkün etdilər".

## *Archana Ramesh PAİ:* "Hazırda iqlim dəyişikliyi ilə bağlı bir çox problem var"

"Hindistan hal-hazırda su qıtlığından əziyyət çəkən ölkələr sırasındadır. Suya qənaətlə bağlı çoxlu tədbirlər görülür, xüsusən torpağın keyfiyyətinin artırılması suyun saxlanması üçün görülən əsas tədbirlərdəndir. Biokömür də bu tədbirlərə daxildir".



Bunu COP29-un hindistanlı iştirakçısı Archana Ramesh Pai deyib. O vurğulayıb ki, hazırda iqlim dəyişikliyi ilə bağlı bir çox problem var.

"Bunlardan biri, iqlim dəyişikliyi məlumatları olmayan insanlara bu informasiyaları verərək iqlim dəyişikliyinin təhlükələrini çatdırmaqdır. Bu, indiki ən böyük çağırışdır. Hindistanda bütün icmalar bununla bağlı birgə hərəkət edir", - deyə o qeyd edib.

## *Ruandha Agung SUGARDİMAN:* "Ümid edirəm ki, COP29 iqlim maliyyələşməsinin vacibliyini bütün dünyaya çatdıran platforma olacaq"

"Bu gün iqlim fəaliyyətini dəstəkləmək üçün əməkdaşlığın gücləndirilməsi vacibdir. COP29-da İndoneziyada karbon qazı tullantılarının təsirinin azaldılması istiqamətində hansı işləri görə biləcəyimizi müzakirə edirik. Bunun üçün təbii ki, dəstək lazımdır. Tərəflərin öhdəliyi qlobal istiləşməni 1,5 °C saxlamaqdır".



Bu sözləri İndoneziyanın FOLU NET SINK təşəbbüsünün sədr müavini Ruandha Agung Sugardiman deyib.

O, yumşaldıcı tədbirlərin və uyğunlaşmanın mütləq şəkildə tezləşdirməli olduğunu vurğulayıb. "Ümid edirəm ki, COP29 iqlim dəyişikliyi ilə mübarizədə maliyyələşmənin vacib olduğunu bütün dünyaya çatdıran platforma olacaq", - deyə o əlavə edib.

## *Tişiko KİNQ:* "COP29-dan ədalətli nəticələrin əldə olunmasını gözləyirəm"

"COP29 konfransında bütün insanların, xüsusilə yerli icmaların və Cənub ölkələrinin mənafelərini əks etdirən ədalətli və inklüziv nəticələrin əldə olunmasını gözləyirik. Yerli xalqlar olaraq, bizi əhatə edən məsələlərin çox vaxt beynəlxalq səviyyədə nəzərə alınmaması davam edir. Buna görə də, maliyyə mexanizmləri və Paris Sazişinin 6-cı maddəsi çərçivəsində torpaq, su və təbii resursların hüquqlarını qoruyan yanaşmaların tətbiqi mühüm əhəmiyyət kəsb edir".



Bu fikirləri COP29 çərçivəsində Avstraliyadan Azərbaycana gəlmiş yerli xalq nümayəndəsi Tişiko Kinq səsləndirib.

Onun sözlərinə görə, konfransda müsbət və əməkdaşlığa söykənən atmosfer hökm sürür: "İştirakçılar öz dövlətlərinin maraqlarını təmin etməyə çalışmaqla yanaşı, qlobal ədalət prinsiplərinə də önəm verirlər. Konfransın ikinci həftəsində adaptasiya və ədalətli keçid prosesini dəstəkləyən praktiki qərarların qəbul edilməsi vacibdir".

## *Barbara BOTOS:* "Yaşıl enerji" keçidinə qadınlar cəlb olunmasa, ona nail ola bilmərik"

"Yaşıl enerji" keçidinə qadınlar cəlb olunmasa, ona nail ola bilmərik. "Yaşıl enerji" bəşəriyyətin gələcəyidir. Planetin 50 faizini qadınlar təşkil edir və buna görə də zərif cinsin nümayəndələri bəşəriyyətin gələcəyində mühüm töhfələr vermək üçün enerji sektorunda yüksək vəzifələri tutmalıdırlar".



Bunu Macarıstanın Energetika Nazirliyində iqlim üzrə xüsusi tapşırıqlar səfiri Barbara Botos jurnalistlərə müsahibəsində deyib.

O, COP29 sədrliyinin işini, irəli sürülən 14 təşəbbüsü yüksək qiymətləndirib. "Xüsusilə enerji keçidi, "yaşıl inkişaf" və suya aid təşəbbüsləri qeyd etmək istərdim. Biz bir-birimizdən iqlim dəyişmələrinə uyğunlaşma yollarını öyrənməliyik. COP29 sədrliyini tərəfdaşları, maraqlı tərəfləri, şirkətləri bir araya gətirdiyinə görə alqışlayıram", - deyə Barbara Botos bildirib.

## *Bilgehan ÖZTÜRK:* "COP sammitinə evsahibliyi etmək bir prestij göstəricisidir"

"Bu gün Bakıda davam edən BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) miqyası və iştirakçı sayını nəzərə alsaq, bunun qlobal səviyyədə təşkil olunan ən böyük tədbirlərdən biri, bəlkə də ən böyüyü olduğunu deyə bilərik. Dünya üzrə eyni anda bir məkanda fərqli ölkələrdən bu qədər insanın iştirakı ilə keçirilən tədbirlərin sayı o qədər də çox deyil. Bütün bunları nəzərə alaraq, COP29-un uğurlu təşkilinə görə Azərbaycanı təbrik edirəm. COP sammitinə evsahibliyi etmək bir prestij göstəricisidir".



Bu fikirləri türkiyəli siyasi şərhçi Bilgehan Öztürk söyləyib.

"Azərbaycanın iqtisadiyyatında neft-qaz istehsalı önəmli paya malik olsa da, əldə olunan gəlirləri gələcəyə, ümumbəşəri problemlərə yatırması istəyini görmək çox xoşdur. Azərbaycan bu təşəbbüslə çıxış edən dövlətlərdəndir. COP-un uğurlu təşkili və Azərbaycan tərəfinin tədbirdə irəli sürdüyü fikirlər də bunu göstərir. Ümumiyyətlə, bütün əngəllərə baxmayaraq, bu gün Azərbaycanın COP29-a evsahibliyi etməsi böyük uğurdur", - deyə o bildirib.

Bilgehan Öztürk deyib: "Xüsusilə Qarabağın işğaldan azad edilməsindən sonra bəzi Qərb ölkələri və ABŞ-də daha çox təsirli olan erməni diasporu tərəfindən Azərbaycana qarşı müxtəlif qaralama kampaniyalarına başlanılıb. Belə bir dövrdə dünyanın dörd tərəfindən çox sayda insan Bakıya gəlib. Bu, onlara Azərbaycanı yaxından tanımaq, azərbaycanlı elm, sənət, siyasət adamları ilə yaxından tanış olmaq, irəli sürülən əsassız iddialara azərbaycanlıların dilindən cavab almaq imkanı da yaradıb. Yəni ilk dəfə Azərbaycana gələn Qərb ölkələrinin vətəndaşları uzun illər ermənilərin dilindən eşitdikləri iddiaları bir də qarşı tərəfdən dinləyə bilirlər. Bu da təbii ki, Qərb ictimaiyyətinin bu məsələ ilə bağlı doğru məlumatlandırılması baxımından olduqca vacibdir".

## *Konsimbo CAMİLATU:* "Özümüzü evdəki kimi hiss edirik"

"COP29-da iştirak etməkdə məqsədim ölkəmdə hazırda həyata keçirilən aqroekoloji nailiyyətləri bölüşmək, iqlim dəyişikliyinə töhfə vermək məqsədilə innovasiyaları bölüşmək və həmçinin Burkina-Fasoda tərəfdaşlıqları müəyyən etməkdir".



Bunu Burkina-Fasonun nümayəndəsi, sahibkar Konsimbo Camilatu bildirib.

Burkina-Fasonun nümayəndəsi qeyd edib ki, onun COP29 konfransından gözləntisi Afrikada kənd təsərrüfatı sektorunun inkişafını artırması, gənclərin kənd təsərrüfatı və balıqçılıq sahələrinə daha çox sərmayə qoymağa cəlb olunması üçün təşəbbüslər həyata keçirilməsidir.

Onun sözlərinə görə, çoxlu sayda işsiz gəncin hazırkı durumdan çıxış yolu kənd təsərrüfatında çalışmaqdır: "COP29 yaxşı təşkil olunub, qonaqpərvər könüllülər var. Bakı gözəl şəhərdir, təhlükəsizlik yaxşıdır, hər şey qaydasındadır. Bizi xoş qarşılayırlar, özümüzü evdəki kimi hiss edirik. Havanın temperaturu da yaxşıdır. Yeməkləriniz ləzzətlidir və hər bir şəraitdən razıyıq".






COP29 Baku Azerbaijan

# Azərbaycan qlobal tədbirlərin mükəmməl təşkilatçılıq modelini yaradıb









*10 yaşlı iştirakçı:*

## "Buradakı insanlarla ünsiyyətdə olmaq maraqlıdır"

"Bu, mənim ilk iştirak etdiyim COP tədbiridir". Bunu COP29-un 10 yaşlı çinli iştirakçısı Ruoxi Vang deyib.



COP29-un heyrətamiz olduğunu deyən azyaşlı iştirakçı əlavə edib ki, müxtəlif ölkələrin pavilyonlarını gəzib: "Burada çoxlu, müxtəlif ölkələr var və dost ola biləcəyimiz, söhbət edəcəyimiz insanları görə bilirəm. Mənim üçün burada iştirak etmək olduqca maraqlıdır".

O, Azərbaycanı bəyəndiyini deyib: "Buradakı insanların özünə inamı olduğunu düşünürəm. Onlarla ünsiyyətdə olmaq maraqlıdır. Bir sözlə, Bakını çox sevirəm".

## "Enerji keçidinin açarı texnologiya, maliyyə və təfəkkürün dəyişməsidir"

"Yaşıl enerji" keçidinə ehtiyac var. Enerji keçidinin öhdəsindən gəlmək üçün uzun və qalıcı həll yolu müəyyən etmək lazımdır".



Bu sözləri İqlim Fəaliyyəti Tərəfdaşlığının üzvü Balasubramanyam Chandramohan deyib. O qeyd edib ki, insanlara problemin qlobal olduğunu çatdırmaq lazımdır.

"Bunu etməklə biz müxtəlif sahələrdə sosial, siyasi, elmi sahələrdə bəzi fəaliyyətlərə uzunmüddətli təsir göstərə biləcəyik. Keçidin açarı, əlbəttə ki, texnologiyadır, maliyyədir, həm də təfəkkürün dəyişməsidir. COP29-da problemin həlli maliyyə mövzusuna yönəlib. Bizə vurulan zərəri azaltmaq, eyni zamanda gələcəyə keçid qurmaq üçün maliyyə mütləqdir", - deyə o qeyd edib.

## "COP29 maliyyə baxımından xeyli irəliləyiş əldə edəcək"

"İtaliya Avropada tullantıların, çirklənmiş ərazilərin, qeyri-qanuni poliqonların atılması ilə bağlı problemləri həll etmək modelinə sahib olan ölkələrdən biridir. Problem isə ekoloji kritiklik, iqlim dəyişikliyi ilə bağlı real vəziyyətdir".



Bu sözləri COP29-da iştirak edən İtaliyada çirklənmiş ərazinin nizamlanması üzrə köməkçi komissar, polkovnik-leytenant Nino Tarantino deyib.

O qeyd edib ki, COP29-un keçirildiyi yer ərazi baxımından çox böyük və gözəldir, hər şey yaxşı təşkil edilib.

"Düşünürəm ki, Bakı gözəl şəhərdir. COP29, əsasən, iqlim maliyyəsinə diqqət yetirir. Düşünürəm ki, COP29 maliyyə baxımından xeyli irəliləyiş əldə edəcək. Öz növbəsində İtaliya iqlim dəyişikliyi ilə mübarizə və davamlı inkişafın təşviqi sahəsində təşəbbüsləri ilə tanınır".

## *Zainab YUNUSA:* "COP29-da gender bərabərliyi və iqlim ədaləti yolunda çətinliklərin həllinə ümidvaram"

"COP29-un təşkilatçıları bu işin öhdəsindən çox yaxşı gəliblər. Nəqliyyat və koordinasiya məsələləri, xəbərdarlıqlar və bildirişlərin vaxtında verilməsi yüksək səviyyədə təmin olunub. Ümumilikdə, logistika, koordinasiya və məlumat əlçatanlığı yaxşıdır. Konfransın təşkilatçılığı məni qane etdi və insanların mehriban münasibəti də çox sevindiricidir".



Bu sözləri Nigeriyanın Qadınlar və Gender Konstitusiyasının üzvü Zainab Yunusa bildirib.

Onun sözlərinə görə, əsas diqqətini cəlb edən məsələ gender bərabərliyi, həmçinin iqlim təsirlərinin qadınların və qızların cinsi və reproduktiv sağlamlıq hüquqları ilə kəsişməsidir: "Bu sahədə müxtəliflik anlayışına böyük əhəmiyyət verirəm. İndiyə qədər gender məsələləri üzrə müzakirələri izlədim və bu sahədə çox az irəliləyiş olduğunu gördük. Hətta mövcud razılaşdırılmış yanaşmaların geri çəkilməsi təhlükəsi ilə üzləşirik. Məlum olduğu kimi, bu il Gender üzrə Təkmilləşdirilmiş İş Proqramının nəzərdən keçirilməsi başa çatmalıdır. Lakin tərəflər arasında bir razılıq əldə edilmir. Əsas problem maliyyə məsələləri ilə bağlıdır. Qadınlar və Gender Konstitusiyasının mövqeyi də belədir ki, maliyyə olmadan yenilənmiş iş proqramı mümkün deyil. Resurslara ehtiyacımız var ki, onu tətbiq edək".

Nigeriyalı iştirakçı bildirib ki, digər mühüm mübahisə mövzusu insan hüquqları ilə bağlıdır: "Gender bərabərliyi olmadan iqlim ədaləti mümkün deyil. COP29-da bugünkü danışıqların son günüdür və biz gözləyirik ki, həmsədrlər tərəflərlə bir kompromis əldə edə bilsinlər. Bununla da qadınların və qızların hüquqlarını önə çəkən bir qərara gəlsinlər".

"Nigeriyadakı iqlim problemlərinə gəldikdə, burada ən mühüm məsələlərdən biri quraqlıqdır. Şimal-şərqdəki bəzi ərazilərdə baş verən sel hadisələri bir neçə ay əvvəl çoxlu sayda insan həyatına son qoydu. İnfrastrukturun, əmlakın və insanların dolanışıq mənbələrinin dağıdılmasına səbəb oldu. Hamilə qadınlar da daxil olmaqla qadınlar və qızlar bu vəziyyətdən ciddi şəkildə əziyyət çəkdilər. Eyni zamanda Çad gölünün kiçilməsi su resurslarının və ərzaq ehtiyatlarının azalmasına, həmçinin münaqişələrin yaranmasına səbəb olur. Nigeriyanın bəzi bölgələrində məhz bu problemlər səbəbindən münaqişə vəziyyətlərinin artdığını müşahidə edirik. Bundan əlavə, qlobal məsələ olan temperaturun artması və istiliklərin hər gün daha dözülməz hala gəlməsi də narahatlıq doğurur", - deyə Zainab Yunusa əlavə edib.

## "İraqda iqlim dəyişikliyi səbəbindən ekstremal hava şəraiti ilə üzləşirik"



"İqlim dəyişikliyi qlobal vəziyyət alıb və qlobal problemdir. İraqda iqlim dəyişikliyi səbəbindən ekstremal hava şəraiti ilə üzləşirik".

Bunu COP29-da iştirak edən İraqın Ətraf Mühit Nazirliyində iqlim dəyişikliyi üzrə direktor müavini, ekologiya üzrə fəlsəfə doktoru Neam Nabeel Hashim Alqaseer deyib.

O qeyd edib ki, İraqda havanın temperaturu çox yüksəkdir: "Yayda bəzən 50-53 dərəcə temperatur olur. Eyni zamanda ölkəmizdə yağıntı miqdarı az, səhralaşan ərazilər isə çoxdur. Bunun səbəbi quraqlıq və su problemimizin olmasıdır. İqlim dəyişikliyinin səbəb olduğu bu hadisələr köçkünlərin sayını artırır.

İraq və Azərbaycan hər ikisi inkişaf etməkdə olan neft ölkəsidir və iki ölkənin də maraqları eynidir. Biz neftdən gələn gəlirlə texnologiyamızı artırmalı və təsirin azaldılması üçün istifadə etməliyik".

İraqlı nümayəndə əlavə edib ki, COP29-un təşkilati işləri, Bakı Stadionu heyrət yaradır: "Dünən mən Heydər Əliyev Mərkəzində oldum. Azərbaycanın tarixi, illər boyu inkişafı mənə çox maraqlı gəldi".

## "Biz güclərimizi birləşdirsək, dünyada tullantı problemi qalmaz"

"Ölkələr metan emissiyalarının azaldılması ilə bağlı öz hədəflərini konkret ortaya qoymalıdırlar. Eyni zamanda metan tullantılarının təmizlənməsi üçün modernləşdirmə də olmalıdır".



Bunu Slovakiya Baş nazirinin müavini və ətraf mühit naziri Tomaş Taraba noyabrın 19-da BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyası (COP29) çərçivəsində "mavi zona"da "İqlim fəaliyyəti üçün üzvi tullantılardan metan qazının azaldılması (ROW)" üzrə yüksəksəviyyəli tədbirdə deyib.

Nazir bildirib ki, tullantıların idarə olunmasında innovasiyalar şərtdir. "Biz birlikdə çalışıb güclərimizi birləşdirsək, dünyada tullantı problemi qalmaz", - deyə slovakiyalı nazir diqqətə çatdırıb.

*Kanika DEVAN:*

## "İqlim problemləri ilə mübarizə aparmaq üçün maliyyə şərtdir"

"Bütün iqlim problemləri ilə mübarizə aparmaq üçün maliyyə şərtdir". Bunu "Ka Design" atelyesinin təsisçisi və kreativ direktoru, Bramco Qrupunun prezidenti, Dünya İqtisadi Forumunun gənc qlobal lideri Kanika Devan deyib.



"Mənim özəl sektorda çalışdığım şirkət 1975-ci ildən bəri davamlılıq, sıfır, tullantı, dairəvi iqtisadiyyat istiqaməti üzrə fəaliyyət göstərir. Həmin ildən sıfır tullantı, əhəngdaşı hasilatı, ada meliorasiyası ilə bağlı işlər görürük", - deyə o, çalışdığı qurumla bağlı məlumat verib.

Kanika Devan bildirib ki, iqlimin davamlılığından yalnız temperatur nöqteyi-nəzərindən danışmaq düzgün deyil: "Temperatur torpaqla bağlıdır. Əgər torpaq yaxşıdırsa, deməli, bütün iqlim dövrü yaxşıdır.

Bu gün yaranan problemlərdən biri də infrastruktur qurarkən həddindən artıq sintetik qatranlardan istifadə edərək, təmiz sudan uzaq durmaqdır. Duz miqdarı və turşuluq çox olduqda binanın dağılması baş verir. 2001-ci ildə qurduğum işlə hava limanları, super yaxtalar hazırladım. Bunlar tam sıfır tullantı qanununa əsaslanırdı. Biz bunu etməklə ekoloji baxımdan, rifah nöqteyi-nəzərindən davamlı olduğumuzu bildiririk".





















COP29 Baku Azerbaijan